AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

NAXÇIVAN - 2015

E.mail: seyidov88@mail.ru

MİRVASİF SEYİDOV
Naxçıvan Dövlət Universiteti

HYALOMMA ASİATİCUM NÖV İKSODİDE GƏNƏLƏRİNİN MÖVSÜMİ PARAZİTLİKETMƏ MÜDDƏTLƏRİNİN HƏRƏKƏT DİNAMİKASI

Açar sözlər: *iksodofauna, gənələr, invaziya, coğrafi zona, Naxçıvan*
Key words: *ixodofauna, mites, infection, geographic zones, Nakhchivan*
Ключевые слова: *иксодофауна, клещи, инвазия, географический пояс, Нахчыван*

Giriş

"2008-2015 ci illərdə ölkə əhalisinin etibarlı ərzaq təminatına dair Dövlət Proqramı" qəbul edildikdən sonra aqrar sektorda aparılan islahatlar daha da dərinləşdirilmiş, yerli ərzaq məhsullarının istehsalına diqqət artırılmışdır. Muxtar respublikanın iqtisadiyatının əsas sahələrindən olan heyvandarlığın durmadan inkişaf etdirilməsi, heyvandarlıq məhsulları istesalının artırılması, onun keyfiyyətinin yaxşılaşdırılması və maya dəyərinin aşağı salınmasından ibarətdir.

Ərzaq təminatına dair Dövlət Proqramının həyata keçirilməsi üçün heyvandarlığın daha da ixtisaslaşdırılması, istehsalın təmərküzləşdirilməsi, yem istehsalı texnologiyasının, damazlıq işinin yaxşılaşdırılması nəzərdə tutulur. Heyvandarlıqda yüksək məhsul əldə etməkdə baytarlıq xidmətinin rolu əvəzolunmazdır. Belə ki, naxır və sürülərdə baş verən xəstəliklərin müalicə və profilaktikasını vaxtı-vaxtında aparmaqla heyvanları müxtəlif xəstəliklərdən qorumaq və yüksək məhsul əldə etmək mümkündür.

Naxçıvan MR-da müşahidə olunan xəstəliklər içərisində ən geniş yayılmış xəstəliklərdən biri də qan-parazitar xəstəlikləridir. Haliyədə qan-parazitar xəstəlikləri və onların keçirici olan iksodide gənələrinə qarşı dünya miqyasında yeni müalicə və profilaktika tədbirləri araşdırılmaqdadır. Buğumayaqlılar tipinin həşəratlar sinfinə daxil olan bu qrup zərərvericilər təkcə qan-parazitar xəstəliklərinin keçiriciləri olmayıb, eyni zamanda bir sıra infeksion (5) xəstəliklərin (taun, yatalaq, tulyaremiya, bruselloz, müxtəlif tip ensefalitlər, vərəm, dabaq, rikketsioz, listerioz və s.) keçiriciləri olduqları üçün tibb təbabətinin də diqqətini cəlb edir və bütün bunlar onu göstərir ki, bu və ya digər regionlarda bu qrup buğumayaqlıların ətraflı öyrənilməsinə böyük ehtiyac vardır.

Material və metodika

Naxçıvan MR-da iksodofaunanı və eləcə də ayrı-ayrı iksodide növ gənələrinin mövsümi parazitliketmə müddətlərinin hərəkət dinamikasını, bu və ya digər növ gənələrlə heyvanların yoluxmasının ekstensivliyini və intensivliyini müəyyən etmək üçün ayrı-ayrı rayonlardan müxtəlif coğrafi qurşaqlarda yerləşən bir neçə təsərrüfat müəyyənləşdirildi. Hər on gündən bir olmaqla ayda üç dəfə həmin təsərrüfatlarda və onun ərazisində olan kənd təsərrüfatı və vəhşi onurğalı heyvanlardan, quşlardan gənələr toplandı. Toplanmış material spirtdə konservləşdirilərək, hansı tarixdə hansı təsərrüfatdan, hansı növ heyvandan toplanması haqqında xususi qeydiyyat aparmaqla laboratoriyaya göndərildi. 1987-1990-cı illərdə toplanmış material Leninqrad (indiki Sankt Peterburuq) şəhərində Zoologiya institunda N.A.Filippovanın rəhbərliyi altında, 2010-2013-cü ildə toplanmış material isə Naxçıvan Elmi Tədqiqat Baytarlıq Mərkəzində MBS-2 mikroskopu altında mənim tərəfimdən B.İ. Pomeransev və N.A. Filippova tərəfindən (2: 3) təklif olunmuş üsulla cins və növləri təyin olundu. Dəqiq məlumat əldə etmək üçün, sürü və naxırdakı heyvanlardan hər yüz baş inəyin 25-dən, camışın 10-dan, qoyunun və keçinin 25-30-dan, təkdırnaqlı heyvanların 15-20-sindən toplanmışdır.

Vəhşi heyvan və quş yuvaları P.M. Pospelova - Ştrom (4) tərəfindən təklif olunmuş üsuldan istifadə etməklə material topladıq. Parazitliketmə müddətləri ayrı-ayrı aylar üzrə parazitlik edən növlərin miqdarı və heyvanların növlər üzrə yoluxma səviyyəsinə əsasən təyin olundu.

Tədqiqatın müzakirəsi

Hl. asiaticum növ iksodide gənəsi Naxçıvan MR-da çox geniş yayılmış dominant növlərdən (1) olmaqla kənd təsərrüfatı heyvanlarının bütün cins və növlərində, o cümlədən vəhşi heyvanlarda tülkü, dovşan, səhra siçovulu, çöl tısbağası və s. parazitlik edir. Süfrə və nimfaları çöl və ev siçanlarında, çöl göyərçinlərində, anbar siçovullarında, qarğa, kəklik, sığırçınlarda, kərtənkələlərdə

parazitlik edir. Naxçıvan MR-nın aran və dağətəyi rayonlarında bu növə mart ayının birinci on günlüyündən sonra rast gəlinir. Həmin vaxtda bu növə biz Kəngərli rayonunun Böyükdüz düzənliyində qoyunlar arasında təsadüf etdik. Bu onu göstərir ki, Hl. asiaticum erkən dövrlərdən başlayaraq heyvanlara hücum edərək parazitlik edir. Mart ayının sonlarında sürüdə 5-8 faiz yoluxma aşkar edilir və bu vaxt hər baş yoluxmuş heyvana 3,6 fərd gənə düşür (şəkil 1).



Heyvanların yoluxması aylar üzrə

Şəkil 1. Naxçıvan MR-nın aran, dağətəyi və dağlıq zonalarında Hl. asiaticum növ iksodide gənələrinin kənd təsərüffatı heyvanlarına hücumunun hərəkət dinamikası.1-aran və dağətəyi zonalarında; 2-dağlıq zonalarda

Hl. asiaticum növ gənələrin heyvanlara hücumu aprel ayının üçüncü ongünlüyünə qədər nisbətən artıb yoluxma intensivliyi 10 faiz, hər baş yoluxmuş heyvana düşən gənə sayı 8,2 fərq təşkil edir.

Aprel ayının üçüncü ongünlüyündə Hl. asiaticumun heyvanlara hücumu kəskin sürətdə artmağa başlayıb, may ayının ikinci ongünlüyünün sonunda sürüdə ən yüksək yoluxma 85,7-86% olmaqla bəzən hər baş yoluxan heyvana 24,3 fərd imaqo düşür. Bundan sonrakı dövrdə bu növün heyvanlara hücumu iyun ayının ikinci yarısınadək nibətən dəyişir və yoluxma 90% olmaqla hər baş yoluxan heyvana 28 fərd gənə təşkil etməklə pik mərhələ sona çatır.

İyun ayının ikinci yarısından sonra heyvanlar arasında Hl. asiaticum növü ilə yoluxmada kəskin dəyişiklik baş verir və üçüncü ongünlükdə yoluxma faizi 15%-ə enməklə, hər baş yoluxan heyvana 9 fərd gənə düşür. Bu eniş iyul ayının sonunadək davam edir. Avqust ayının əvvəllərindən Hl. asiaticum növünün təkrar aktivləşməsi nəzərə çarpıb, sentyabr ayının ikinci ongünlüyünün sonunadək davam edərək, nisbətən zəif də olsa ikinci pik mərhələyə çatır və bu vaxt heyvanlar arasında yoluxma 35 faiz olmaqla, hər baş yoluxan heyvanda 6,3 fərd gənə aşkar olunur. Oktyabr ayının birinci ongünlüyünün sonunadək onların sayı təbiətdə getdikcə azalır və əlverişli hava şəraitində oktyabr ayının sonundan sonra tək-tək rast gəlinir.

Naxçıvan MR-nın dağlıq zonalarında Hl. asiaticum növü aprel ayının ikinci ongünlüyündən sonra aktivləşir.

Bu artım tempi may ayının birinci ongünlüyünün sonunadək davam edib, heyvanlar arasında 35% faiz bəzi hallarda 40%-dək yüksəlir və bu vaxt hər baş yoluxan heyvana orta hesabla 4,5-5,7 fərd gənə düşür. Bundan sonrakı mərhələdə onların sayında azalma müşahidə edilir, iyun ayının üçüncü ongünlüyündən sonra heyvanlar arasında yoluxmanın ekstensivliyi və intensivliyi getdikcə azalaraq iyul ayının birinci ongünlüyündə heyvanlar arasında 17,3-19,8% yoluxma müşahidə edilməklə, hər baş yoluxmuş heyvana 2,3 fərd gənə düşür. Bu azalma sentyabr ayının ikinci ongünlüyünün sonunadək davam edərək, aktivləşmənin dağlıq zonalarında bir pik mərhələsi qeydə alınır.

Nəticələr

1.Aparılan araşdırmalardan məlum olmuşdur ki, Hl. asiaticum iksodide gənəsi Naxçıvan MR-da çox geniş yayılmış növlərdən hesab olunur.

2.Aran və dağətəyi qurşaqlarda kənd təsərrüfatı heyvanların Hl. asiaticum növ gənələrinin hücumunun biri yüksək, digəri isə nisbətən zəif olmaqla iki pik mərhələsi aşkar olmuşdur.
3.Aran və dağətəyi zonalarda heyvanlar arasında ən yüksək yoluxma intensivliyi 86-90% olmaqla hər baş yoluxmuş heyvana 24,3-28 fərd təşkil edir. Bu yoluxma may ayının ikinci ongünlüyünün sonundan iyun ayının ikinci yarısınadək davam edir.
4.Nisbətən zəif olan ikinci pik mərhələ avqust ayının ikinci ongünlüyünün sonunadək davam edir. Heyvanlar arasında 35 faiz yoluxma aşkar olmaqla, yoluxma ekstensivliyi 6,3 fərd təşkil edir.
5.Dağlıq zonalarda Hl. asiaticum növ gənələrinin heyvanlara hücumunun bir pik mərhələsi aşkar olmaqla bu aprel ayının ikinci ongünlüyündən, may ayının birinci ongünlüyünün sonunadək olan bir dövrü əhatə edir. Yoluxma intensivliyi 35-40%, yoluxma ekstensivliyi 4,5-5,7 fərd hesab olunmuşdur.
6.Hl. asiaticum növ gənələri qan-parazitar xəstəliklərlə bərabər bir sıra infeksion xəstəliklərin keçiriciləri olduğundan onlara qarşı mübarizə aparılması həlli vacib məsələ hesab olunmalıdır.

ƏDƏBİYYAT

1.M.A.Seyidov . Naxçıvan MR-da iksodofauna və kənd təsərrüfatı heyvanlarının yoluxma vəziyyəti. Azərbaycan Aqrar Elmi jurnalı. 1-3 cild "Azərbaycan" nəşriyyatı, 2004, səh. 157-158.
2.Б.Н. Померанцев. Фауна СССР (паукообразные) иксодовые клещи. Том 4, вып. 2. Издательство Академии Наук СССР. Москва, 1950. стр. 200-202
3.Н.А.Филиппова. Таксономический состав клешей семейства ixodidae в фауна СССР и перспективы его изучения. Паразитологический сборник. Том 32, стр. 61-78. Ленинград «Наука», 1984
4.Сердюкова Г.В. Иксодовые клещи фауны СССР. М. Изд-во АН СССР. 1956 стр. 102-106
5.У.Я. Узаков. Иксодовые клещи Узбекистана Изд-во «Фан» Узбекской ССР Ташкент-1972 стр. 28-29

ABSTRACT

Mirvasif Seidov

Dynamics of the timing of seasonal parasitizing of mite species of Hyaloma asiaticum

In the study of ixodofauna of Nakhchivan AR found that mites of species of Hyaloma asiaticum were distributed in all geographic zones.

To determine that time of parasitizing of mites species of Hyaloma asiaticum and incidence and intensity of infection. Detected peak stage in the development of mites. The peak of stage is found in lowland and foothill areas in the second half of June, and the second stage of the peak in mid-September and in mountainous areas at the end of the first decade of May.

РЕЗЮМЕ

Мирвасиф Сеидов

Динамика движении сроки сезонного паразитирования клещей вида Hyaloma asiaticum

При исследовании иксодофауны Нахчыванской АР установлено что, клещи вида Hyaloma asiaticum распространено во всех географических поясах. Определен сроки паразитирования клещей вида Hyaloma asiaticum а также экстенсивность и интенсивность инвазии. Обнаружено пиковая стадия в развитии клещей. Пиковая стадия обнаруживается в низменных и предгорных районах во второй половины июня, а вторая пиковая стадия во второй декаде сентября, а в горных зонах в конце первой декады мая.

MÜNDƏRÍCAT

HEYVANDARLIQ

1.**Saleh Məhərrəmov.** Naxçıvan MR-də helmintozların qoyunçuluğa vurduğu iqtisadi zərər və onun qarşısının alnma yolları.....3

2.**Elşad Əliyev.** Muxtar respublikada kənd təsərrüfatının müasir vəziyyəti.....6

3. **Əbil Əbilov.** heyvandarliğin inkişaf etdirilməsində biotəhlükəsizliyin qorunması və ekoloji şərtlərin təmin edilməsi.....9

4.**S.Y. Bayramov, S.Ə.Məmmədov**. Azərbaycanda quşların ivazion xəstəliklərə yoluxma dərəcəsi.....12

5. **Həbib Hüseynov.** Naxçıvan MR şəraitində dənli bitkilərə zərər verən ziyankar bağacığın (eurygriceps put) bioekoloji xüsusiyyətləri və ona qarşı mübarizə tədbirləri- 16

6. **Əliyar İbrahimov. Fatmaxanım Nəbiyeva**. Heyvandarlıq məhsullarının artırılmasında yem vahidindən istifadənin yolu.....18

7. **İsmayıl Məmmədov**. Naxçıvan Muxtar Respublikasında keçilərdə eymeriyaların yayılması və növ tərkibi.....24

8. **Yunis Rüstəmli.** Ətin falsifikasiya üsullarının təsnifatı.....29

9.**Əli Tahirov, Natiq Məmmədov.** Kiçik arıçılıq təsərrüfatlarında ana arıların yetişdirilməsinin təşkili.....33

10.**Fezi İbadov**. Qoyunların diktiokaulyozunun öyrənilmə tarixi.....38

11. **Fəridə Səfərova.** Naxçıvan Muxtar Respublikası florasında yayılmış zəhərli bitkilərin heyvandarlıq təsərrüfatına təsiri.....41

12. **Mirvasif Seyidov.** HyalommaAsiaticum növ iksodide gənələrinin mövsümi parazitliketmə müddətlərinin hərəkət dinamikası.....44

13. **Əyyub Abdullayev, Vəli Novruzov.** Muxtar respublikada heyvandarlığın müasir vəziyyəti.....47

14.**A.Ruşanov.** Naxçıvanda qoyunçuluğun perspektivliyinin əsasları.....51

15. **S.Abbasov.** Hibritləşmə və embrion köçürülmə maldarlıqda ən zəruri intensiv yetişdirmə üsullarıdır.....55

16. **İ.Məmmədzadə**. İshaləleyhinə istifadə olunan bitkilərin tədbiqinin maldarlıqda aktuallığı.....60

17. **Ramiq Abbasov**. Qaramal cavanlarının 18 aylığadək bəslənməsi texnologiyasının ət məhsuldarlığına təsiri.....65

18.**Seyfəli Qəhrəmanov**. Naxçıvan Muxtar Respublikasında yayılan göy-yaşıl və yaşıl yosunların ekologiyası.....70